BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ MƏCMUƏSİ

№ 11 Aprel (Nisan) 2009

# İslam Mazhablari Tarixinda Takfir

Dr. Aqil Şirinov*

Islam məzhəbləri tarixinə nazar salsaq hicri birinci asrda müsəlmanlar arasındakı daxili mübarizə naticasinda mübahisə obyektinə çevrilən təkfir mövzusunun müxtəlif Islam mazhablari tarafindan oz metodlanna uyğun bir şəkildə müzakirə edildiyini görərik. Mövzu ilk dafa ciddi bir şəkildə xaricilik (xavaric) cərəyanının müxtəlif qollan tarafindan müzakirə edilmişdir. Nahravanda bir çox tərəfdarını itirən, daha sonra bir məzhəb kimi formalaşan və başqa görüşlərə qarşı dözümsüzlüyü ilə seçilən bu sart tabiatli cərəyan böyük günah sahibinin (murtəkibu'l-kəbirə-مرتكب الكبيرة) kafir olduğu görüşünü müdafiə edirdi.[1] Bazi xarici qruplar hatta kiçik günah işləyəni belə kafir hesab edirdi. Xariciliyə gora miicarrad iman miisalman olmaq üçün kifayat deyil, amallar da imanın bir parçası sayılmalıdır. Əgər insan böyük giinah işləsə imandan çıxar. Ela isa o hokrnan tovba etmalidir. Əks təqdirdə ham dünyada müsəlman kimi qəbul edilməz, ham da axiratda abadi azaba düçar olar. Məhz bu sababdan xaricilar digar miisalmanlara qarşı sart movqedan çıxış etmiş, öz görüşlərini qəbul etməyənləri küfrlə ittiham etmişlər.[2] Hətta öz aralarında bazi masalalarda farqli düşünən xarici qruplar bir-birlarini belə takfir etmişlər. Məsələn, xariciliyin azariqa qolunun banisi hesab edilan Nafi ibn Əzraq kafirlərin (xarici olmayanlann) diyarından hicrət etməyən digar xarici qrupları, xüsusilə da nəcədatı[3] bu sababdan takfir etmişdir.[4] Onlar öz görüşlərini paylaşmayan bütün qrupları takfir etməklə

---

* Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin müəllimi

1 Şəhristani, *əl-Miləl və'n-nihal*, tahqiq edanlar: Əmir Əli Muhənna va Əli Həsən əl-Fa'ur, Beyrut, 1421/2001, C. 1,səh. 137.
Xaricilar Siffin muharibəsində "təhkim"-ə razı olduğu üçün həz. Əlini da təkfir ediblər. Bax. Şəhristani, *eyni əsər*, C. 1, sah. 135.

3 Xarici qruplardan biri olan Nacadat Nacda ibn Amir əl-Hənəfinin tərəftarlarına verilən addır.

4 Əzariqəyə gora kafirlərin torpağından çıxıb getmak (xuruc) vacibdir. Nacadat isə kafir olsalar belə digar insanlarla birlikdə qalmanın (quud) caiz olduğunu müdafiə edirdi. Xaricilərin acarida qolu isə həddi-büluğ yaşına çatana qədər hatta oz

yanaşı potensial düşmən kimi qəbul edir və qanlarının tökülməsini caiz görürdülər. Əzariqa onların məzhəbindən olmayanları müşrik kimi qəbul edərək həm özlərinin, həm də uşaqlarının əbədi olaraq cəhənnəmdə qalacaqlarını iddia edirdilər. Onlara görə digər məzhəblərin nümayəndələrinin yaşadıqları bölgələr "daru'l-küfr (küfr diyarı-دار الكفر)" olub burada yaşayanların, onların qadın və uşaqlarının öldürülməsi, qul edilməsi və mallarının qəsb olunması caizdir.[5] İlk dövr xaricilərinin digər məzhəblərə, hətta öz məzhəbləri daxilində olan başqa qruplara qarşı belə kəskin mövqedən çıxış etmələri yaşadıqları mühitlə sıx şəkildə bağlı idi. Belə ki, bu qrupların əksəriyyəti səhra şəraitində yaşayan bədəvilərdən ibarət idi. Bədəvi qəbilələri isə aralarında anlaşma olmayan digər qəbilələrə düşmən gözü ilə baxırdılar. M. Vatın (M. Watt) da qeyd etdiyi kimi bədəvi qəbiləsinin mənsublarının, aralarında müqavilə olmayan digər qəbilələri hazır düşmənlər olaraq gördükləri kimi, xəvaric qrupları da özlərindən başqa hamını qanlarının tökülməsi mümkün olan düşmənlər kimi qəbul edirdilər.[6]

Yuxarıda da qeyd etdiyimiz kimi xaricilik öz içində müxtəlif qruplara ayrılmışdı. Bunların içərisində ən məşhurları əzariqa, süfriyyə, beyhəsiyyə, nəcadat və ibaziyyədir. İlk dörd qrup tarix səhnəsindən silinmiş, yalnız ibaziyyə dövrümüzə qədər gəlib çıxa bilmişdir. Ən mötədil xarici firqəsi hesab olunan ibaziyyə digər xarici qrupların təkfir mövzusundakı sərt görüşünü müdafi etmir. Bu məzhəb küfrü "həqiqi küfr" və "nemət küfrü" şəklində ikiyə ayırır. Bu bölgüyə əsasən böyük günah işləyən müsəlman həqiqi deyil nemət küfrü ilə səciyyələndirilir və fasiq hesab olunur. Onlara görə böyük günah işləyən "mömin" vəsfi ilə olmasa da "muvahhid (tövhid əhli)" vəsfi ilə səciyyələndirilə bilər. Beləcə ibaziyyə İslamın əsas prinsiplərini qəbul edən bütün insanları günahkar müsəlman hesab edir.[7]

---

uşaqlarından belə uzaqlaşmağın gərəkli olduğunu vurğulayırdı. Bax. Şəhristani, *eyni əsər*, C. 1, səh. 140, 148.

[5] Şəhristani, *eyni əsər*, C. 1, səh. 140-141; Mustafa Öz, "Ezarika", *DİA*, C. 12, səh. 44.

[6] William M. Watt, *İslam Düşüncesinin Teşekkül Devri*, çev. E.R.Fığlalı, Ankara: Ümran Yayınları, 1981, səh. 24.

[7] Əbdülqahir Bağdadi, *əl-Farq beynə'l-firaq*, tərcümə edən: E. Ruhi Fığlalı, Ankara, 2005, səh. 74; Şəhristani, *eyni əsər*, səh. 156.

Xaricilərin sərt mövqeyinin müqabilində başqa bir mazhab olan mürciənin tamamilə aks movqedan çıxış etdiyini görürük. Metod baxımından özündən sonrakı bir çox Islam məzhəbinə tasir edan, lakin dövrümüzə qadar oz movcudiyyatini qoruya bilmayan bu mazhaba görə əməllərin imana heg bir dəxli yoxdur, boyuk giinah iglayan müsəlman və mömindir.[8] Mürciə bütün Islam məzhəblərini iman dairəsi içində qabul edir və təkfirdən an az istifadə edan mazhab hesab edilir.

Islam rasionalistlari kimi tanınan mötəzilə alimləri xaricilər kimi əməli imandan saysalar da boyuk giinah sahibini təkfir etmayiblar. Mötəzilənin beg əsasından biri olan "əl-mənzilə beynə'l-mənzilələteyn" prinsipinə gora boyuk giinah işləyən insan na mömin na da kafir olub bu ikisinin arasındadır (əl-mənzilə beyna'l-manzilateyn). agar tovba etmadan olarsa abadi olaraq cahannamda qalacaq, lakin onun cəzası kafirin cəzasından daha az olacaqdır. Manbalarda boyuk günah işləyənin vəziyyəti haqqındakı miibahisalar mötəzilə mazhabinin tarix səhnəsinə çıxış səbəblərindən biri kimi göstərilir. Buna gora bir nafar Həsən əl-Bərinin yanına galarak belə demigdir: "Ey dinin imamı! Dövrümüzdə böyük günah sahiblərini təkfir edan bir qrup ortaya çıxıb. Onlara gora böyük giinah küfr olub bununla İslam ümmətindən kanara çıxılar. Bu qrup xaricilərin vaidiyya qoludur. Başqa bir qrupa gora isa necə ki, küfrlə birlikdə itaətin heç bir faydası yoxdur, elaca da Allaha iman etdikdən sonra asi çıxmağın (böyük giinah işləməyin) da zərəri yoxdur. Bunlar isa miirciadirlar. San bu movzuda hansı hökmü verirsan?". Həsən əl-Bəsri bu movzudalu fikrini bildirməmişdən awal onun şagirdi va mötəzilənin qurucusu hesab edilən Vasil ibn Əta belə dedi: "Mən boyuk giinah sahibinin na mütləq manada mömin, na da kafir olduğunu deya bilmaram. O, na kafir na da mömindir, lakin iki yer arasmda bir yerdadir (əl-mənzilə beynə'l-mənzilələteyn)".[9] Motazila mazhabi ümumən digar mazhablarin nümayəndələrini kafir kimi deyil günahkar mömin (fasiq) kimi qəbul etmişdir.[10] Zeydiyya məzhəbinin görüşü motazilanin görüşünə

---

[8] Abdullah ibn əl-Əş'as, *Qasidətu Abdillah ibn əl-Əş'as*, təhqiqi edan: Mahmud Muhamməd əl-Həddad, əl-Riyad, 1408, sah 38; Şəhristani, *eyni əsər*, C. 1, səh. 162.

[9] Şəhristani, *eyni asar*, sah 57-58, 61-62.

[10] Şeyx Müfid, *Əvailu'l-magalat fi'l-məzahibi'l-muxtarat*, səh. ; Əbu Cafar at-Tusi, *əl-İqtisadu'l-hadi ilə tariqi'r-raşəd*, Qum, 1400, sah 141.

bənzərdir. Bu məzhəbin tanınmış alimlərindən biri olan Hüseyn ibn Bədruddinə görə böyük günah işləyən nə mütləq mənada kafir nə də mömin olmayıb fasiqdir.[11] Zeydiyyə və Mötəzilənin təkfir anlayışı haqqında əsər yazan zeydi alim Əbu'l-Qasim əl-Bəsətiyə görə fisq (böyük günah işləmək) həqiqi küfr deyil nemət küfrüdür.[12] Buradan görünür ki, ibaziyyə, mötəzilə və zeydiyyənin bu mövzudakı fikirləri bir-birinə olduqca yaxındır.

Şiə-imamiyyə məzhəbi daxilində də təkfir problemi müzakirə edilmişdir. Bu məzhəbdə qeyd edilən problem iki cəhətdən araşdırılmışdır. Birincisi yuxarıda da qeyd etdiyimiz böyük günah məsələsidir. İstisnalar olsa da[13] imamiyyə alimləri ümumən imanı əməlin bir parçası kimi qəbul etmirlər. Bu baxımdan onlara görə böyük günah işləyən günahkar olsa da bununla iman dairəsindən çıxmaz.[14]

İmamiyyə içərisində təkfir mövzusunda müzakirə olunan başqa bir problem imamətə qeyd edilən məzhəbin üsuluna görə inanmayan digər müsəlmanların küfrü problemidir. Bu mövzuda imamiyyə alimlərini ikiyə ayırmaq mümkündür. Əsasən klassik dövr imami alimlərin əksəriyyətinin müdafiə etdiyi görüşə görə imamət prinsipini qəbul etməyənlər kafirdir. İbn Növbaxt, Şey Səduq, Şeyx Müfid və Şərif əl-Mürtəza başda olmaqla bəzi alimlər bu görüşdədirlər.[15] Lakin bu görüşə qarşı çıxan klassik imami alimlər də mövcud olmuşdur. Nəsirəddin Tusi buna bariz nümunədir. O, özünün *Təlxisu'l-Muhassal* adlı əsərində "qiblə əhli təkfir olunmaz" prinsipini müdafiə edən Fəxrəddin Razi ilə razılaşaraq "bu ehtiyyata daha uyğundur,

---

[11] Hüseyn ibn Bədruddin, *əl-İqdu's-səmin fi mə'rifəti rabbi'l-aləmin*, təhqiq edən: M. Yəhya Salim İzzan, Səna, 1415, səh. 58-59.

[12] Əbu'l-Qasim əl-Bəsəti, *əl-Bəhs an ədilləti't-təkfir və't-təfsiq*, təhqiq edən: İmam Hənəfi Seyyid Abdullah, Qahirə, 2006/1427, səh. 59

[13] Bax. Əbu Cəfər ət-Tusi, *eyni əsər*, səh. 140-141.

[14] Nəsirəddin Tusi, *Təcridu'l-etiqad*, təhqiq edən: M. Cavad Hüseyni Cəlali, Qum, 1986/ 1406, səh. 309; İbn Meysəm əl-Bəhrani, *Qavaidu'l-məram fi ilimi'l-kəlam*, Qum, 1398, səh. 170; Cəfər Sübhani, *əl-İlahiyyat ala hudə'l-kitab və's-sunnə və'l-aql*, hazırlayan: Həsən Muhamməd Məkki əl-Amili, Qum, 1426, C. 4, səh. 313-314.

[15] Şeyx Səduq, *əl-Hidayə*, Qum, 1418, 27-28; Şeyx Müfid, *Əvailu'l-məqalat* fi'l-məzahibi'l-muxtarat, təhqiq edən: Mehdi Mühəqqiq, Tehran, 1513, səh. 7, 11; Şərif (seyyid) əl-Mürtəza, *əl-İntisar*, Qum, 1415, səh. 477-478; Qolpayeqani, *Kitabu't-təhara*, Qum: Matbaatu Seyyidi'ş-şühəda, tarixsiz, səh. 313

çünkü müsəlmanların takfiri təhlükəlidir" deyərək takfir üslubuna qarşı çıxmışdır.[16]

Klassik imamiyya alimlarinin təkfirlə alaqali müzakirə etdikləri başqa bir mövzu "nasibi" terminiyla alaqalidir. İstisnasız bütün şiə alimlərinə gora nasibilar kafirdirlər. Ancaq bu terminin tərifi va hansr qrupların ona daxil olduğu mövzusu mübahisə obyekti olmuşdur. Şiə alimlərinin çoxu Nasibi məfhumunu "Əhli-beyt"-ə düşmən olan" şəklində tərif etmişlər.[17] Masalan, Mühəqqiq Hilliyə gora nasibilar "məsum imamlardan har hansı birina adavat bəsləyən va onlara dil uzadanlardır".[18] Bu görüş əsas almarsa xaricilər, imam Museyi-Kazıma adavat bəsləyən bazi ismaililər va ifrat Əməvi tərəftarları istisna edilmakla digar İslam firqalari 'Wasibi" adlandırılmırlar.

Alimlərin bazilari isa bu termini imamət prinsipini imamiyyənin qabul etdiyi şəkildə qabul etmayan har kasa şamil etmiş va hətta Zeydiyya va Vaqifiyya kimi digar şiə məzhəbləri "Nasibi" saymışlar.[19]

Klassik İmami alimlar miicabbira, haz. Əli va ya digar imamlara ilahlıq xüsusiyyətləri istinad edan ğulat firqalari da kafir hesab etmişlər.[20]

Klassik alimlərdən farqli olaraq müasir imamiyya alimləri takfir iislubuna qarşı çıxmış, imamati aqida əsası kimi qabul etmayan, lakin tovhid, niibiiwat va məad prinsiplərini va İslamın zəruri hökmlərini qabul edan har kasin müsəlman va mömin olduğunu vurğulamışlar. Bir çox rniiasir imamiyya alimlarina gora imamət va ədl dinin deyil mazhabin əsaslarındandır. Buna gora da bu prinsipləri qabul etmayanlar Islam dairasindan çıxmazlar. Seyyid Şərafuddin Musa Carullah Bigiyevin şiəyə

[16] Tusi, *Təlxisu'l-Muhassal*, Beyrut, 198511405, sah 405.

[17] Bax. Şəhidi Sani, *Məsaliku'l-əfham ila tangihi Şəraii'l-İslam*, Qum, 1416, C. 7, sah 432; Mahammadbaqir Səbzəvari, *Kifəyatu'l-əhkam*, İsfahan, tarixsiz, sah 168; eyni müəllif, *Zaxiratu'l-maad fi şərhi'l-irşad*, Muassasatu Ali'l-beyt li ihyai't-turas, tarixsiz, C. 1, sah 152

[18] Mühəqqi Hilli, *Şəraiu'l-İslam fi məsəili'l-halal va'l-haram*, Qum, 1409, C. 1, sah. 12

[19] Şeyx Yusif Bəhrani, *əl-Hədəiqu'n-nadira fi əhkəmi'l-itrəti't-tahira*, tahqiq edan: Muhammədtəqi İrəvani, Qum: Cəmaatu'l-müdərrisin, tarixsiz, C. 5, sah. 189; Bəzi şiə mənbələrində Vaqifiyyənin (Imamların bir qisminin imamətini qabul edib digar qismininkini qabul etmayanlar) Nasibilərdən daha pis olduğu va müşrik hökmündə olduğu qeyd edilir. Bax. Bəhaəddin əl-Amili, *Məşriqu'ş-şəmseyn və iksiru's-səadəteyn*, Qum, 1398, sah 274

[20] Qolpayeqani, Kitabu't-təhara, Qum: Matbaatu Seyyidi'ş-şühəda, sah 311

qarşı tənqidlərinə qarşı yazdığı əsərində bəzi mötəbər şiə hədis mənbələrində bu məzhəbə bağlı olmayanların küfrlə ittiham olunmasının "həqiqi küfr" mənasında yox əhli-beyt imamlarına muxalifətin doğru bir davranış olmadığının vurğulanması mənasında olduğunu qeyd edir. Bu, bəzi hədis kitablarında namazı tərk etməyin, nəsəbə tən etməyin, ölülərin arxasından nalə çəkərək ağlamağın və s. əməllərin "küfr" olaraq səciyyələndirilməsi kimidir.[21] Ayətullah Xomeyni *Kitabu't-təhara* adlı əsərində İslamın mahiyyətinin tövhid, nübuvvət və məada inanmaqdan ibarət olduğunu, imamətin isə dinin yox məzhəbin üsulundan (üsulu'l-məzhəb) olduğunu vurğulamqdadır. Ona görə qeyd edilən üç əsasa inanan hər kəs müsəlmandır.[22] Mürtəza Mütəhhəri, Kaşifu'l-Ğıta və Muhammədbaqir əl-Hakim başda olmaqla bir çox şiə alimi eyni fikri paylaşır.[23]

Əhli-sünnə alimləri də həm kəlam, həm də fiqh əsərlərində təkfir məsələsini müzakirə etmişlər. Bu məzhəbdə Əbu Hənifə tərəfindən ortaya qoyulduğu irəli sürülən "qiblə əhlindən heç kim təkfir olunmaz- لا يكفر احد من اهل القبلة" prinsipi qəbul edilmişdir. Əbu Hənifə özünün *əl-Fiqhu'l-əkbər* adlı əsərində problemi iman-əməl münasibəti baxımından ələ almış, əməlin imanın bir parçası olmadığını, belə olan halda da Məhəmməd ümmətinin asilərinin (böyük günah işləyənlər) kafir olmadığını qeyd etmişdir.[24] Qiblə əhli (Əhli-qiblə) termini haqqında müxtəlif izahlar verilsə də[25] ümumən "Kəbəyə doğru yönələrək namaz qılmanın fərz olduğuna inananlar" şəklindəki tərif qəbul edilmişdir. Bura eyni görüşü paylaşan bütün məzhəblərin nümayəndələri daxildir.[26] Əşəri məzhəbinin ilk imamı hesab edilən Əbu'l-Həsən əl-Əşəri İslam məzhəbləri tarixi ilə əlaqəli yazılan klassik kitabların içərisində obyektivliyə ən yaxın mənbə olaraq saya biləcəyimiz *Məqalətu'l-islamiyyin* adlı əsərinin girişində belə deyir:

---

[21] Seyyid Şərafuddin, *Əcvibətu məsaili Carullah*, Sayda (Livan): Matbaatu'l-irfan, 1373, səh. 47-48

[22] Xomeyni, *Kitabu't-təhara*, C. 3, Qum, 1409, səh. 322-323

[23] Bu mövzuda geniş məlumat üçün bax. Muhamməd Həsən Qaraməliki, *Kəlame fəlsəfi*, Qum, 1383, 179-210

[24] Bax. Əli əl-Qari, *əl-Fiqhu'l-əkbər*, *Şərhu'l-Fiqhi'l-əkbər*'lə birlkdə, təhqiq edən: Muhamməd Bədruddin Əbu Firas ən-Na'sani, Qahirə, 1323, səh. 57

[25] Bax. Metin Yurdagür, "Ehli Kıble", *DİA*, C. 10, səh. 515-516

[26] Cürcani, *Kitəbu't-tə'rifat*, "əhlu'l-qiblə" maddəsi, tərcümə edən: Arif Erkan, İstanbul, 1997, səh. 45

"İnsanlar peyğəmbərlərindən (haz. Mahammaddan) sonra bir çox movzuda bir-birlərindən ayrıldılar; bu movzuda bir-birlərini doğru yolda olmamaqla ittiham etdilar, bir-birindən uzaqlaşdılar va belaca bir-birlərinə zidd firqələr va səpələnmiş qruplara çevrildilər. Halbuki, İslam onları birləşdirir va oz dairasi içərisinə alırdı".[27] Yena maghur əşəri alimi Əbu Hamid Qazzali özünün bu movzuda yazdığı *Faysalu't-təfriqa beynə'l-İslam və'zənadiqa* adlı əsərində qibla əhlini takfirdan uzaqlaşmağın lüzumundan bahs edir. Ona gora müxtəlif İslam mazhablari digar məzhəbləri haz. Peygambari yalanladığını iddia edarak takfir etmiglar. Masalan, hanbalilar əşariləri, əşarilər isə mötəziləni bu sababdan takfir etmişlər. Qazzaliya gora bu doğru noqteyi-nazar deyil. Üsuluddinin (aqida əsasları) üç əsasını, yəni tövhid, niibuwat (peyğəmbərlik) va məadı (axirət) qabul edən va eyni zamanda istər dinin əsaslarından, istarsa da fər'indən (füruuddin-İslamın gartlari) olsun mütəvatir yolla sabit olan bütün hökmləri qabul edan har kas müsəlmandır. Belə bir şəxsi takfir etmak düzgün deyil. Ona gora bu prinsipləri qabul etdiyi halda bunların tafarriiatmda bazi goriiglari qabul etmayanlar küfr deyil xata va bid'atla səciyyələdirilməlidir.[28] Eyni fikirləri bir çox sünni alimi bölüşür. Lakin bazan bu mazhaba mənsub olan bazi alimlər da yuxarıda qeyd edilan prinsipə riayat etməmişlər. Masalan, Darimi (ö. 2801894) "əhli qibla takfir edilmaz" prinsipini qabul etsa da bu prinsipi məhdudlaşdıraraq sifətləri zatdan ayrı qabul etmayan va Quranın məxluq olduğunu irali sürən va səhabələrin icmasına zidd etiqadlara sahib olanların "əhli qibla" olmadığını irali siirarak başda Cəhmiyyə olmaqla buna bənzər goriiglara sahib olanları takfir etmişdir. Ona gora belə görüşləri manirnsayanlara awalca bu görüşlərindən dönməyi taklif etmak lazımdır va agar onlar bunu radd etsalar "mürtədd (dindən dönən)" hökmündə sayılmalıdırlar.[29] Bundan başqa məşhur Əşari alimi Əbu İshaq əl-İsfərayini (ö. 41811027) əşəriləri takfir edan bütün firqələrin təkfir edilmali olduğuna dair movqeya sahib

[27] Əbu'l-Həsən əl-Əşəri, *Məqalətu'l-islamiyin*, türkcəyə tərcümə edənlər: Mehmet Dalkılıç-Ömer Aydın, Istanbul, 2005, sah. 27.

[28] Bax. Qəzzali, *Faysalu't-təfriqa beynə'l-İslam və'zənadiqa*, *Rasəilu'l-Ğazzali* içində, Beyrut: Daru'l-kutubi'l-ilmiyyə, 1997, C. 3, sah 75-99

[29] Darimi, ar-Radd *alə'l-Cəhmiyyə*, nəşr edan. Gösta Witestam, Leiden 1960, səh. 93-104

olmuşdur.[30] Lakin bu görüş digər əşəri alimlər tərəfindən ümumən qəbul edilməmişdir. Bu mövzunu ən obyektiv bir şəkildə müzakirə edən sünni alimlərdən biri olan məşhur əşəri alimi Adududdin əl-İci özünün *əl-Məvaqif* adlı əsərində mötəzilə, şiə-imamiyyə, xəvaric və mücəssimə məzhəblərini təkfir edənlərin dəlillərini bir-bir müzakirə edərək rədd etmiş və bu firqələrin İslam dairəsində olduğunu irəli sürmüşdür. Adı çəkilən əsərə şərh yazan Seyyid Şərif Cürcani də İci ilə eyni görüşləri müdafiə etmiş İslamdan uzaqlaşmış ifrat firqələrdən başqa digər firqələrin kafir olmadığını qeyd etmişdir.[31]

Sələfiyyə istisna olmaqla əhli-sünnət alimlərinə görə əməl imanın bir parçası deyildir bu baxımdan böyük günah sahiblərini təkfir etmək doğru deyildir.[32]

Təkfirlə əlaqəli klassik İslam məzhəbləri tarixi mənbələrində müzakirə obyektinə çevrilən mövzulardan biri də "qurtulan firqə (əl-firqatu'n-naciyə)" hədisidir. Bəzi hədis mənbələrində keçən və hər məzhəbin öz anlayışına uyğun bir şəkildə hədis kimi nəql etdiyi bu xəbərə görə həz. Peyğəmbər "yəhudilər 71, xristianlar 72, mənim ümmətim isə 73 firqəyə bölünəcəklər. Bunlardan 72-si cəhənnəmlik biri isə cənnətlik olub qurtulan firqədir " demişdir.[33] Hədisin son cümləsinin sünni versiyasında qurtulan firqənin həz. Peyğəmbərin və əshabının, şiə-imamiyyə versiyası isə əhli-beytin yolundan gedənlər olduğu bildirilir.[34] Dünyada digər məzhəbləri təkfir etməyərək onlara dözümlü yanaşan alimlərin əksəriyyəti belə "qurtulan firqə" anlayışını qəbul etməklə axirətdə digər firqələrin mənsublarının cəhənnəmlik olduğunu

---

[30] Bax. Sə'duddin Təftəzani, *Şərhu'l-Məqasid*, təhqiq edən: Abdurrahman Umeyra, 1989. C. 5, səh. 227; Seyyid Şərif Cürcani, *Şərhu'l-Məvaqif*, təhqiq edən: Mahmud Ömər əd-Dimyati, Beyrut, 1997/1419, C. 8, səh. 370

[31] Bax. Cürcani, *eyni əsər*, , C. 8, səh. 370-375

[32] Fəxrəddin ər-Razi, *əl-Muhassal*, *Təlxisu'l-Muhassal*'la birlikdə, Beyrut, 1985/1495, səh. 401; Nurəddin əs-Sabuni, *Maturidiyye Akaidi* (*əl-Bidayə fi Usuliddin*), təecümə edən: Bekir Topaloğlu, Ankara/ 2005, səh. 162

[33] Bax. Əhməd ibn Hənbəl, *Müsnəd*, Beyrut: Daru sadir, tarixsiz, C. 3, səh, 145; Tirmizi,"iman", 18, Əbu Davud, "Sünən", 1; İbn Macə, "Sünən", 1.

[34] Səlim ibn Qays əl-Hilali, *Kitəbu Səlim ibn Qays*, təhqiq edən: Muhamməbaqir əl-Ənsari, səh. 169; Hürr əl-Amili, *Vəsailu'ş-şia*, Qum, 1414, C. 27, səh. 49-50; Məclisi, *Biharu'l-ənvar*, Beyrut, 1403/1983, C. 36, səh. 336; Nemətullah əl-Cəzairi, *Nuru'l-bərahin*, Qum, 1417, C. 1, səh. 60-61.

qabul etmişlər. Bazi alimlar adı çəkilən hadisi sanad baxunmdan sahih qabul etmiş, bazilari isa qabul etməmişdir.[35] Lakin sahih olub olmamasından asılı olmayaraq bu hədis kəlami baxımdan istifadaya əlverişli olmamalidir. Çünki, hədis miitavatir deyil ahaddır (xəbəri vahid). Etiqadda isa ancaq miitavatir hadislar əsas alınır. Ona gora da müxtəlif mazhab alimlərinin bu hadisdan istifada edarak digar mazhablari "cəhənnəmlik" qabul etməsi va onları bir nov takfir etmalari kalami baxımdan doğru deyil. Lakin çox təəssüf ki, bir çox Massik kalam alimi oz metodlan ila ziddiyyat təşkil etmasina baxmayaraq bu hadisdan dalil kimi istifada etmişlər va oz mazhablarinin "nicat tapan" digarlarinin isa "zalalatta olan" firqalar olduğunu iddia etmişlər. Hətta bazi mazhablar tarixçiləri oz kitablarının tartibinda bu '%adis"-a asaslanaraq Islam məzhəblərinin sayını zorla 73-a çatdırmaq məqsədini giidiiblar. Əbu'l-Hüseyn al-Malati, Əbdü'l-Qahir əl-Bağdadi, Şahfur ibn Tahir əl-İsfərayini, Əbu'l-Fəth əş-Şəhristani va Adududdin al- Ici kimi alimlar mazhablari təsnif edarkan buna əsaslanmağa çalışıblar. Lakin buradakı 73 rəqəminin haqiqi manada istifada edilmadiyini, yeddi va yetmiş üç rəqəmlərinin arab dilində çoxluğu göstərdiyini irəli sürən Maqdisi, İbnu'l-Cəvzi, Fəxrəddin ər-Razi, Cəlaləddin Dəvvani va Şatibi kimi alimlar da olmutjdur. Onlara gora hədis İslam cəmiyyətinin çoxlu sayda firqalara boliinacayi mənasını verir.[36] Zahiriyyə məzhəbinə mənsub məşhur alim İbn Hazm isa bu hadisi tamamilə radd edarak onun sahih olmadığını qeyd edir.[37] Maqdisi isa özünün *Əhsənu't-təqasim fi mə'rifəti'l-əqalim* adlı əsərində hədisin sanad baxımından daha sahih olan başqa bir versiyasının olduğunu va bu versiyaya gora haz Peyğəmbər firqələrin yetmiş ikisinin cannatlik, birinin isa cəhənnəmlik olduğunu demişdir. Maqdisi bu versiyanm sanad baxunmdan daha sahih, digərinin isa daha məşhur olduğunu ifada edir.[38] Lakin o, sahih qabul etdiyi versiyanm sənədini vermir.

---

[35] Bu barədə geniş məlumat üçün bax. Cafar Subhani, *əl-Buhus fi'l-miləl va'n-nihal,* Qum, 1426, C. 1, sah 24-26

[36] İlyas Üzüm, "mezhep", *DİA*, Ankara, 2004, C. 29, sah. 526-527

[37] İbn Hazm, *əl-Fasl fi'l-milal va'l-ahva va'n-nihal*, təhqiq edanlar: Muhammad İbrahim Nasr-Abdurrahman Umeyra, üçüncü nəşr, Beyrut, 1996 1416, C. 3, səh. 292.

[38] Cafar Sübhani, *eyni mənbə,* C. 1, sah 27

Üstəlik Məqdisinin qeyd etdiyi versiya önəmli hədis mənbələrinin heç birində yoxdur.

73 firqə hədisini səhih olaraq qəbul etsək belə onu dar mənada yorumlamaq əvəzinə "qurtulan firqə"-ni müəyyən bir məzhəbin deyil İslamın üç təməl əqidə əsaslarını və zəruri hökmlərini qəbul edən bütün məzhəblərin təmsil etdiyini irəli sürmək İslamın ruhuna daha uyğun olardı.[39]

Tarixə nəzər yetirsək qütbləşmənin də məzhəblərarası təkfirdə böyük rolu olduğunu görərik. Xüsusilə şiə və sünni məzhəbləri arasındakı əlaqələrdə bunu açıq bir şəkildə görmək mümkündür. Məzhəblərin siyasi məqsədlər üçün istifadə edilmədiyi dövrlərdə onlar arasındakı münasibətin normallaşdığını, əks halda isə münasibətlərin korlandığını və hətta təkfir üslubunun işə düşdüyünü görürük. Məsələn, müsəlman ölkələrin monqollar tərəfindən işğalına qədər şiə və sünni alimlərinin bir-birlərilə münasibəti soyuq idi. Səbəb isə hər iki məzhəbin bi-birinə muxalif olan müxtəlif dövlətlər tərəfindən dəstəklənməsi və məzhəb alimlərinin də bu şəraitə uyğun bir üsubu mənimsəmələri idi. Büveyhilər (Ali Buye) və Səlcuqilər dövrünü buna misal göstərmək mümkündür. Büveyhilər şiə-imamiyyə məzhəbini, Səlcuqilər isə əhli-sünnəni dəstəkləyirdilər. Belə bir şəraitdə isə həmin məzhəbin alimləri mənsub olduqları dövlətlərin mənafeyindən çıxış edərək bir-birlərinə qarşı sərt üslubdan istifadə etmişlər. Lakin monqol işğalından sonra vəziyyətin müsbətə doğru dəyişdiyini görürük. Belə ki, monqollar İslam dünyasındakı bütün dövlətləri yox etdikləri üçün artıq müəyyən bir məzhəbi dəstəkləyən müsəlman dövləti də qalmamışdı. Belə bir dövrdə xüsusən şiə və sünni alimlərin təkfir üsubundan uzaqlaşmış, əsərlərində bir-birlərini iltifat ifadə edən sözlərlə anmış, bir-birlərinin əsərlərindən sitat gətirmişlər. Bunun ən gözəl nümunəsi böyük alim Nəsirəddin Tusinin fəaliyyətləridir. Özü şiə-imamiyyə məzhəbinə bağlı olsa da digər məzhəblərin, xüsusilə də əhli-sünnənin alimləri ilə yaxın dostluq qurmuş, onlarla elmi əlaqələr yaratmışdır. Onun Qazi Beyzavi ilə əlaqəsini buna nümunə göstərmək olar. Bundan başqa o öz kitablarında, bir çox məsələdəki görüşlərini tənqid etsə də məşhur sünni-əş'əri alimi Fəxrəddin ər-Razini iltifatlı sözlərlə anmışdır. Məsələn *Şərhu'l-İşarat*'ın müxtəlif

[39] Bu mövzuda geniş məlumat əldə etmək üçün bax. Mevlüt Özler, *İslâm Düşüncesinde 73 Fırka Kavramı*, İstanbul, 1996

yerlərində Razini "fəzilətli şərhedici-الفاضل الشارح" ifadasila anır. Təsadüfi deyildir ki, onun kalam elmi sahasinda yazdığı *Təcridu*'l-e'tiqad-a yazılan taqriban 200 şərh, haşiyə va təliqatın aksariyyati sünni alimlar tarafindan yazılmışdır. Bunların an maghurlan tanınmış əş'əri alimi Şəmsəddin İsfahani və hanafi alimi Əli Quşçu tarafindan yazılmış şərhlərdir. Bu, o dövrə qədər təsədüf olunmayan bir hal idi. Çünki, istər sünni, istərdə da şiə alimləri nəinki aqida sahəsində bir-birlarinin asarlarina şərh yazmır, hatta qarşı taraf haqqında xoşagəlməz ifadalar da istifada edirdilar. Lakin Tusidən sonra vaziyyat dəyişdi. Artıq har iki mazhabin alimləri, bazi hallar istisna olunmaqla[40] takfir dilini ümumən tark etmişdilər. Bu hal onu gostarir ki, siyasi hakimiyyətin mazhablardan oz mənafeyi uğrunda istifada etmədiyi dovrlarda məzhəblərarası münasibətlər o qadar da pis olmamışdır. Bu musbat hal Səfavi-Osmanlı mubarizasina qadar davam etmişdir. Lakin bu dövrdən etibaran, har iki dovlatin özünü muayyan bir mazhabin hamisi kimi təqdim etməsi sababila miinasibatlarin yenidən pisləşmiş, takfir üslubu geri qayıtmışdı. Bu dövrdə har iki mazhabin nümayəndələrinin qarşılıqlı olaraq bir-birlarini kafirliklə ittiham etmaya başladılar va hatta bir-birlərinə qarşı cihad fitvası verdilar. Osmanlı şeyxulislamı İbn Kamalın (Kamal Paşazadə) şiələri takfir edan bir risalə yazaraq onlarla müharibəni şəriət baxımından caiz qəbul edan bir fitva vermasini va Safavi dövrü məşhur şiə alimlərindən Mahammadbaqir əl-Məclisinin oz asarlarinda şünnilərə qarşı ağır ifadalar işlədərək onları takfir etməsini buna misal göstərmək mümkündür.[41] Lakin buna baxmayaraq o dövrdə har iki tarafda obyektivlikdan kanara çıxmayan az sayda alimlar da movcud idi. Bunun an gözəl nümunəsi məşhur hanafi alimi Əli əl-Qaridir. Səfəvilərin Herat hücumu naticasinda bir çox yaxınını itirsa va Hicaza köçmək məcburiyyətində qalsa da insaf ölçüsündən kanara çıxmamağa çalışmış, özünün *Şəmmu'l-avariz fi* zammi*'r-ravafiz* adlı

[40] Buradakı istisna ilə Olcaytu xan dövründəki şiə-sünni polemkasını, xüsusən Əllamə Hilli ila İbn Teymiyyə arasındakı polemikanı nəzərdə tuturuq. Lakin bu pelemikanın özündə belə siyasi yönlərin olduğunu irəli sürmək mümkündür. Belə ki, Hillinin Elxanilərlə yaxın alqasi var idi va onun sayi ila Olcaytu Xan şiə-imamiyyə məzhəbini qəbul etmişdi. İbn Teymiyya isa qeyd olunan dovlata qarşı düşmənçilik movqeyindan çıxış edirdi.

[41] Bax. ibn Kamal, *Risalə fi təkfiri'r-ravafiz*, *Xamsu rasəil fi'l-firaq və'l-məzahib* adlı asarin içində, tahqiq edan: Seyid Bağçıvan, Darussəlam, tarixsiz, sah. 195-201

asarinda şiənin bir çox görüşünü tanqid etsa da qeyd edilan mazhabinin haqiqi manada takfirinin doğru olmadığını miidafia etmişdir.[42]

XIX-cu va xüsusən da XX-ci asrda məzhəblərarası münasibət yena normallaşmağa başladı. Bu dovrdan etibaran ümumən ham sünni ham da şiə alimləri bir-birlərinə qarşı takfir üslubundan istifadə etmamaya çalışmış, məzhəblərarası miinasibati normallaşdırmağa çalışmışlar. Mazhablarin yaxınlaşması təşəbbüsü ila Qahirədə qurulan Daru't-taqrib va ondan sonra Tehranda faaliyyat göstərən Macmau't-taqrib kimi təşkilatların qurulması buna bariz nümunədir. Yanlış dialoq üsulunun tatbiqi sababila bu təşəbbüslər gözlənilən naticani vermasa da, bu, har iki mazhab alimlərinin xoş marammdan xabar vermakdadir va takfir üslubunun tark edilmasi mənasına galir.

Bu müsbət inkişafla yanaşı modem dövrlə birlikda Islam dünyasında takfir üslubunu mənimsəyən bir çox harakat da orataya çıxmışdır. Bunlara an gozal nümunə ixvanu'l-müslimin təşkilatından ayrılaraq farqli bir qrup halına gələn "Takfir va hicrat camaatı (جماعة التكفير و الهجرة )"-dır. Bu harakatm qurucusu Misir hökumətinə qarşı fəaliyyətlərinə gora edam cazasma məhkum edilan 1978-ci ilda öldürülən Şükrü Musatafadır. Hərəkatının əsas görüşlərini habsxanada olarkan formalaşdıran Şükrü Mustafa yaşadığı çətin şəraitin təsirilə sərt movqedan çıxış etmiş va takfir üslubunu mənimsəmişdi. Bu camaata gora har bir miisalman şəriətlə alaqali hökmləri birbaşa Quran va sünnədən çıxış edarak çıxarmalıdır. Əgər har hansı bir fəqihi taqlid edarsa kafir olar. Onlara gora faqihlar dini məfhumların mənalarını dəyişdiriblər. Onlara tabe olmaqla insanlar küfrə va zəlalətə düşərlər. Yena onlara gora Makkadaki Məscidu'l-Həram, Mədinədəki Peygambar mascidi (al-Mascidu'n-Nabavi), Qiidsdaki əl-Əqsa mascidi va Quba mascidi xaricindəki mascidlar taqva niyyəti ilə tikilmadiyi üçün onlarda namaz qılmaq caiz deyil. Əməli imandan sayan bu camaata gora agar bur insan bütün vacib amallari yerina yetirib yalnızca birinə amal etmasa onda o miisalman hesab olunmamalıdır.[43] Takfir va hicrat camaatı va

---

[42] Bax. Əli al-Qari, *Şəmmu'l-avariz fi zəmmi'r-ravafiz*, tahqiq edan: Macid əl-Xəlifə, 1425, tarixsiz, sah 28 va əsərin müxtəlif yerlari.

[43] Bu hərəkat haqqında geniş məlumat üçün bax. M. Ahmed Celi, *Çağdaş Haricilik Düşüncesi Tekfir ve Hicret Cemaati Orneği,* tərcümə edan: Adnan

buns bənzər qruplar ümumən yarandıqlan mühitin həyəcanını daşıyırlar və buna gora da farqli mühitlərdə yaşayan geniş müsəlman kütlələrə tasir etmə guclari mahduddur.

Takfir mexanizmi salafi (vahhabi) anana içərisindəki bazi qruplarda da öz varlığını qorumaqdadır. Çağdaş sələfilik içərisində iki qrupdan bahs etmək mümkündür. Saudiyya Ərəbistanı dovlati tarafindan dəstəklənən birinci qrup əsasən monarxiyanın va liberal muxalifətin dəstəklədiyi "mülayim" salafilikdir. İkinci qrup isa ümumiyyətlə orta tabaqaya mənsub olan bazi alimlar va din xadimlərinin təmsil etdiyi radikallardan ibaratdir və təkfir üslubundan bol-bol istifada edir. Birinci qrup ümumən takfira qarşıdır. Təkfir problemi salafiyya iqarisinda o qadar aktualdır ki, qeyd edilan məsələdə an çox məhz bu cərəyanın təmsilçiləri asarlar yazmışdır. İkinci qrupa daxil olan va oz görüşlərini əsasən internet şəbəkəsi ila yaymağa çalışan takfirqilarin oz məzhəbdaşlarını, hətta başda Saudiyya Ərəbistanı olmaqla bütün müsəlman ölkələrini takfir etməsi[44] sələfiyyənin qabaqcıl alimlərini bu movzuda kitab va maqalalar yazarak oz fikirlərini bildirməyə sövq etmişdir. Salafilar arasında xüsusi hormata sahib M. Nasiruddin əl-Albani va Abdulaziz ibn Bazın takfir üslubuna qarşı yazdıqları asarlari buna misal göstərmək olar.[45] Lakin qeyd etmak lazımdır ki, birinci qrup ümumən əhli-sünnə daxilinda hesab etdiyi firqalara qarşı takfir dilindan istifada etmaya qarşıdır. Bu qrup da digar mazhablara, xüsusən da şiə-imamiyyəyə qarşı sərt movqedan çıxış edir, bazan isa takfir üslubunu işə salır. Məşhur sələfi alimlar Əbdüləziz ibn Baz[46] və İbn Cibrinin şiə məzhəbini takfir

Demircan, İstanbul: Beyan Yayınları, 1997; Mine Gürhan, *Tanrıbilm Açısından Tekfir*, yayınlanmamış magisatratura işi, Fırat Universiteti Sosyal Bilemler Enstitüsü Temel Islam Bilimleri Anabilim Dalı-Kelam Bilim Dab, Elazığı-Türkiyə, 2006, səh. 105-110

[44] Bu qruplar haqqında bax. Amili, *əl-İntisar*, Beyrut, 1422, C. 1, sah. 107-209.

[45] M.Nasiruddin əl-Albani, *Fitnətu 't-təkfir*, www.dkh-islam.com/Files/PDF/General/FitnahtuTakfeer.doc

[46] Əbdüləziz ibn Baz, *Məcmuu fətava*, http://www.binbaz.org.sa/book/m005.pdf, C. 5, sah. 156-157; Əbdüləziz əl-Xamis, "əl-Aləqa büynə'ş-şia və't-təyyari's-sələfi", http://www.aljazeera.net/NR/exeres/362A6361-D95E-4406-98B8-8FCECAD8232B.htm;

etmayini buna misal gostara bilərik.[47] Ancaq salafiyya iqarisinda Salman əl-Udah, Muhsin əl Avaci va s. kimi digər Islam mazhablarina qarşı takfir uslubundan istifada etmaya qarşı olan alimlar da var.

Son dovrda müxtəlif Islam mazhablarina mənsub olan alimlar takfir uslubuna qarşı asarlar yazaraq Islamm aqidavi əsaslarını va zəruri dini hökmləri qəbul edan har bir şəxsin müsəlman olduğunu qeyd etmiş va müsəlmanlar arasındakı əlaqədə takfir metodunu tatbiq etmənin yanlış olduğunu vurğulamışlar. Müxtəlif mazhablara mənsub 500-dan çox alimin 2004-cü ilin noyabr ayının doqquzunda Əmmanda birlikda takfir əleyhinə bir bəyanat imzalamasını buna misal göstərə bilərik.[48] bir Haqiqatan da takfir uslubu ham İslamın geniş çərçivəsini daraltması, ham da tolerantliği ortadan qaldıraraq müxtəlif mazhablara mənsub insanların birlikda yaşamalarına mane olması baxımından İslamın ruhuna uyğun olmayan bir üslubdur. Bu üslub eyni zamanda dini sahədəki düşüncə azadlığını müəyyən bir qrupun görüşləri ila məhdudlaşdıraraq fikri inkişafa da maneçilik toradir.

47 Bax. http://ibn-jebreen.com/ftawa.php?view=vmasal&subid=12869&parent=3959

48 Bax. The Amman Message, http:/lwww.ammanmessage.com/

**Summary**

*Takfir* is one of the controversial themes in the history of Islamic sects. There were many groups in Islamic tradition who declared other groups a *kafir* (unbeliever). In this article we discussed the conception of *takfir* in the history of Islamic sects and revealed main Islamic sects' point of view in this subject.

**İstifadə edilmiş adabiyyat**

ALBANİ, M.Nasiruddin, *Fitnətu't-təkfir*, www.dkh-islam.com/Files/PDF/General/FitnahtuTakfeer.doc

AMİLİ, Bəhaəddin, *Məşriqu'ş-şəmseyn və iksiru's-səadəteyn*, Qum, 1398.

AMİLİ, *əl-İntisar*, Beyrut, 1422, C. 1, sah. 107-209.

BAĞDADİ, Əbdülqahir, *əl-Farq beynə'l-firaq*, tərcümə edan: E. Ruhi Fığlalı, Ankara, 2005.

BƏHRANİ, İbn Meysam, *Qavaidu'l-məram fi ilimi'l-kəlam*, Qum, 1398.

BƏHRANİ, Yusif, *əl-Hədəiqu'n-nadira fi əhkəmi'l-itrəti* 't-tahira, tahqiq edan: Muhammədtəqi İrəvani, Qum: Cəmaatu'l-müdərrisin, tarixsiz, C. 5.

BƏSƏTİ, Əbu'l-Qasim, al-Bahs an *ədilləti't-təkfir və't-təfsiq*, tahqiq edən: Iman Hanafi Seyyid Abdullah, Qahirə, 200611427.

CELİ, M. Ahmed, *Çağdaş Haricilik Düşüncesi Tekfir* ve *Hicret* Cemaati *Örneği*, tərcümə edan: Adnan Demircan, Istanbul: Beyan Yayınları, 1997.

CÜRCANİ, Seyyid Şərif, *Kitəbu*'t-ta*'rifat*, "əhlu'l-qiblə" maddasi, tərcümə edan: Arif Erkan, Istanbul, 1997.

__________________________, *Şərhu'l-Məvaqif*, tahqiq edan: Mahmud Omar əd-Dimyati, Beyrut, 199711419, C. 8

DARİMİ, Əbu Said Osman ibn Xalid, ar-Radd *alə'l-Cəhmiyyə*, nəşr edan. Gösta Witestam, Leiden 1960.

ƏBU DAVUD, Süleyman ibn əl-Əş'as ibn Ishaq Sicistani, *Sünən*, tahqiq edən: Said Muhammad əl-Liham, Beyrut, 141011990, C. 2.

ƏBU HƏNİFƏ, Nu'man ibn Sabit, *əl-Fiqhu'l-əkbər*, *Şərhu'l-Fiqhi'l-akbar'la* birlkdə, tahqiq edan: Muhammad Badruddin Əbu Firas an-Na'sani, Qahirə, 1323.

IBN HƏNBƏL, Əbu Abdullah Əhməd ibn Muhammad Şeybani Marvazi, Miisnad, 111, 120; Tirmizi, *Sünən*, "iman", 18.

ƏŞƏRİ, Əbu'l-Həsən, *Məqalətu'l-islamiyin*, tiirkcaya tərcümə edanlar: Mehmet Dalkılıç-Ömer Aydın, Istanbul, 2005.

GÜRHAN, Mine, *Tanrıbilm Açısından Tekfir*, yayınlanmamış magisatratura işi, Fırat Universiteti Sosyal Bilİmler Enstitüsü Temel Islam Bilimleri Anabilim Dalı-Kelam Bilim Dalı, Elazığı-Türkiyə, 2006.

HİLLİ, Mühəqqiq, *Şəraiu'l-İslam fi məsəili'l-halal və'l-haram*, Qum, 1409, C. 1.

http://ibn-jebreen.com/ftawa.php?view=vmasal&subid=12869&parent=3959

http://www.ammanmessage.com/

XAMİS,Əbdüləziz,"əl-Aləqa beynə'ş-şia və't-təyyari's-sələfi", http://www.aljazeera.net/NR/exeres/362A6361-D95E-4406-98B8-8FCECAD8232B.htm;

XOMEYNİ, Ruhullah Musəvi, Kitabu*'t-təhara*, C. 3, Qum, 1409.

IBN BAZ, Əbdüləziz, *Məcmuu fətava*, http://www.binbaz.org.sa/book/m005.pdf, C. 5.

IBN BƏDRUDDİN, Hüseyn, *əl-İqdu*'s-samin *fi* ma*'rifəti* rabbi*'l-aləmin*, tahqiq edan: M. Yahya Salim İzzan, Səna, 1415.

IBN əl-Əş'as, Abdullah, *Qasidətu* Abdillah ibn *əl-Əş*'as, tahqiqi edan: Mahmud Muhamməd al-Haddad, əl-Riyad, 1408.

İBN HAZM, Əbu Muhammad Əli ibn Əhməd ibn Said ibn Hazm al-Əndəlusi əl-Qurtubi, *əl-Fasl fi'l-miləl* va*'l-əhva* va'n-nihal, tahqiq edanlar: Muhammad İbrahim Nasr-Abdurrahman Umeyra, üçüncü nəşr, Beyrut, 1996 1416, C.3.

İBN KAMAL, Şəmsəddin Əhməd, *Risalə fi təkfiri'r-ravafiz*, *Xamsu rasəil fi'l-firaq* va'1-mazahib adlı əsərin içində, tahqiq edan: Seyid Bağçıvan, Darussəlam, tarixsiz.

İBN MACƏ, Əbu Abdullah Muhammad ibn Yezid Maca əl-Qəzvini, *Sünən*, tahqiq edan: Muhammad Fuad Əbdulbaqi, Beyrut: Darul-fikr, tarixsiz, C. 2.

QARAMƏLİKİ, Muhammad Həsən, *Kəlame falsafi*, Qum, hicri-şəmsi 1383.

QARİ, ƏLİ, *Şəmmu'l-avariz fi* zammi*'r-ravafiz*, tahqiq edan: Macid əl-Xəlifə, 1425.

QƏZZALİ, Əbu Hamid, *Faysalu't-təfriqa* beyna'1-Islam va*'zənadiqa*, *Rasəilu'l-Ğazzali* içində, Beyrut: Daru'l-kutubi'l-ilmiyyə, 1997, C. 3.

QOLPAYEQANİ, , *Kitabu't-təhara*, Qum: Matbaatu Seyyidi'ş-şühəda, tarixsiz.

ÖZ, Mustafa, "Ezarika", *DİA*, C. 12.

ÖZLER, Mevlut, *İslâm* Dugiincesinde 73 Fzrka *Kavramı*, İstanbul, 1996.

RAZİ, Fəxrəddin, *əl-Muhassal*, *Təlxisu*'I-Muhassal'la birlikdə, Beyrut, 198511495.

SABUNİ, Nuraddin, *Maturidiyye* Akaidi (*əl-Bidayə fi Usuliddin*), təecümə edan: Bekir Topaloğlu, Ankara/ 2005.

SEYYİD ŞƏRAFUDDİN, Əbdülhüseyn, *Əcvibətu məsaili Carullah*, Sayda (Livan): Matbaatu'l-irfan, 1373.

SƏBZƏVARİ, Məhəmmədbaqir, *Kifəyətu'l-əhkam*, İsfahan, tarixsiz.

------------------------------ *Zəxiratu*'I-maad *fi* *şərhi*'I-irgad, Muassasatu Ali'l-beyt li ihyai't-turas, tarixsiz.

SÜBHANİ, Cafar, *əl-Buhus fi'l-miləl* va*'n-nihal*, Qum, 1426, C. 1.

------------------, *əl-İlahiyyat* ala *hudə'l-kitab və's-sunnə və'l-aql*, hazırlayan: Həsən Muhamməd Məkki əl-Amili, Qum, 1426, C. 4.

ŞEYX MÜFİD, *Əvailu*'I-maqalat *fi'l-məzahibi*'I-muxtarat, tahqiq edan: Mehdi Miihaqqiq, Tehran, 1413.

ŞEYX SƏDUQ, *əl-Hidayə*, Qum, 1418, Qum, 1418.

ŞƏHİDİ SANİ, Zeynuddın al-Amili, *Məsaliku'l-əfham ilə* tanqihi *Şəraii'l-İslam*, Qum, 1416, C.7.

ŞƏHRİSTANİ, Əbu'l-Fəth, *əl-Miləl və'nihal*, tahqiq edənlər: Əmir Əli Muhənna va Əli Həsən əl-Fa'ur, Beyrut, 142112001, C.1.

ŞƏRİF al-Miirtaza, *əl-İntisar*, Qum, 1415.

TƏFTƏZANİ, Sə'duddin, *Şərhu'l-Məqasid*, tahqiq edan: Abdurrahman Umeyra, 1989. C. 5.

TUSİ, Əbu Cafar, *əl-İqtisadu*'I-hadi *ilə* tariqi*'r-raşəd*, Qum, 1400.

TUSİ, Nasiraddin, Tacridu'l-etiqad, tahqiq edan: M. Cavad Hüseyni Calali, Qum, 19861 1406.

---------------------, *Təlxisu'l-Muhassal*, Beyrut, 1985/1405.

ÜZÜM, İlyas, "mezhep", *DİA*, Ankara, 2004, C. 29.

WATT, William M., *İslam Düşüncesinin Teşekkül Devri*, çev. E.R.Fığlalı, Ankara: Ümran Yayınları, 1981.

YURDAGÜR, Metin, "Ehli Kıble", *DİA*, C. 10.